ISSN: 2663-4619
e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/117/83-87

**İnci Ağayeva**
Azərmemar Dövlət Baş Layihə İnstitutu
https://orcid.org/0009-0008-9870-7958
UOT-746.5
imemmedova158@gmail.com

# Azərbaycanda batika sənətinin tarixi inkişafı və onun milli geyim mədəniyyətində tətbiqi

**Xülasə**

Batika sənəti qədim dövrlərdən bəri müxtəlif xalqların tekstil və bəzək sənətində yer almış, xüsusilə İndoneziyada inkişaf edərək dünya mədəni irsinin önəmli hissəsinə çevrilmişdir. Bu sənət növü parçanın üzərinə mum və boya ilə naxışların işlənməsi texnikasına əsaslanır və həm estetik, həm də simvolik mənalar daşıyır. Batika yalnız geyim bəzəyi deyil, həm də sosial status, dini inanc və mədəni kimliyin ifadə vasitəsi olmuşdur.

Tarixi baxımdan batika sənəti müxtəlif mərhələlərdən keçmiş, Orta əsrlərdən başlayaraq İslam mədəniyyəti, Avropa kolonializmi və müasir dövrdə qloballaşmanın təsiri ilə fərqli formalarda inkişaf etmişdir. İsti və soyuq batika texnikaları, müxtəlif boya və parça növləri ilə zənginləşərək sənətkar yaradıcılığını genişləndirmişdir.

Azərbaycanda batika sənəti qədim tekstil və ipəkçilik ənənələri fonunda inkişaf etmişdir. Xüsusilə Şəki, Basqal və Gəncə kimi bölgələrdə tətbiq olunan parça boyama texnikaları, XX əsrdən etibarən müasir batika texnikaları ilə zənginləşmişdir. Azərbaycanın milli ornamentləri, nağıllar və mədəni simvollar batika motivləri kimi geniş istifadə olunur. Xüsusilə "kəlağayı" bu sənətin ən gözəl və qədim nümunələrindən biri sayılır və Azərbaycan qadınının mədəni simvoluna çevrilmişdir.

***Açar sözlər:*** *Batik sənəti, tekstil texnologiyası, parça boyama, milli geyim, dekorativ tətbiqi sənət, kəlağayı, Azərbaycan mədəniyyəti, təbii boyalar, etnoqrafik irs, ipəkçilik*

**Inji Aghayeva**
Azermemar State General Design Institute
https://orcid.org/0009-0008-9870-7958
UOT-746.5
imemmedova158@gmail.com

# Historical Development of Batik Art in Azerbaijan and its Application in National Clothing Culture

**Abstract**

The art of batik has existed since ancient times and played an important role in the textile and decorative arts of many cultures. It reached its classical form in Indonesia, where it became a significant part of the cultural heritage. Batik is based on the technique of applying wax and dye to fabric, producing intricate and symbolic patterns. It serves not only as decoration for clothing but also as an expression of social status, religious beliefs, and cultural identity. Historically, batik evolved through various stages, influenced by Islamic culture, European colonialism, and globalization. The development of hot and cold batik techniques, alongside the use of diverse dyes and fabrics, expanded artistic possibilities.

In Azerbaijan, batik developed against the backdrop of traditional textile and silk-making practices. Regions like Shaki, Basgal, and Ganja were known for fabric dyeing, which in the 20th century merged with modern batik techniques. Azerbaijani national motifs, fairy tales, and cultural symbols are often incorporated into batik designs.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

The “kelaghayi,” a traditional silk headscarf, stands out as one of the most beautiful and ancient forms of Azerbaijani batik, symbolizing national identity and femininity.

***Keywords:*** *Batik art, textile technology, fabric dyeing, national costume, decorative applied arts, kelaghayi, Azerbaijani culture, natural dyes, ethnographic heritage, sericulture*

## Giriş

Batik sənəti dünya tekstil mədəniyyətində özünəməxsus yerə malikdir. Qədim zamanlardan bəri inkişaf edən bu sənət növü xüsusilə İndoneziyada geniş yayılmış və oranın milli-mədəni kimliyinin ayrılmaz hissəsinə çevrilmişdir (Ələkbərova, 2012). Batikin əsas texnologiyası — parçanın müəyyən hissələrinin muma batırılaraq boyanın həmin sahələrə keçməsinin qarşısının alınması — bu sənəti digər tekstil boyama üsullarından fərqləndirir və ona unikallıq qazandırır (Əliyev, 2007). Bu yanaşma sadəcə texniki deyil, həm də dərin simvolik və estetik mənalar daşıyır.

Batik sənətinin UNESCO tərəfindən qeyri-maddi mədəni irs kimi tanınması (2009) onun qlobal miqyasda tanınmasına və qorunmasına əlavə stimul vermişdir (İsayev, 2015). Tədqiqatın məqsədi batik sənətinin yaranma tarixi, əsas texniki xüsusiyyətləri və müasir dövrdə müxtəlif sahələrdə, o cümlədən eko-dizayn və interyer dizaynında istifadəsi ilə bağlı təhlil aparmaqdır. Bununla yanaşı, Azərbaycan tekstil sənətində batikə bənzər elementlərin, xüsusilə kəlağayı sənətinin mövcudluğu və bu sənət növləri arasında mümkün əlaqələrin araşdırılması da işin əsas istiqamətlərindən biridir (Əliyeva, 2016; Hacıyeva, 2010).

Bu məqalədə həmçinin müasir dövrdə batik texnikasının ekoloji cəhətdən davamlı moda və dizayn anlayışları ilə necə uzlaşdığı da təhlil edilir. Beləliklə, batik təkcə keçmişin sənət mirası kimi deyil, həm də gələcəyin davamlı dizayn modellərində öz yerini tapan bir ifadə vasitəsi kimi qiymətləndirilir (İsmayılova, 2018).

Batika sənəti əsrlər boyunca bir çox mədəniyyətin ayrılmaz parçası olmuş, həm estetik, həm də funksional xüsusiyyətləri ilə seçilən vizual ifadə formalarından biridir. Parça üzərində naxışların boya və xüsusi materiallar vasitəsilə işlənməsi prinsipi əsasında formalaşan bu sənət,sadəcə dekorativ deyil, həm də dərin simvolik və mədəni mənalar daşıyan bir fəaliyyət növüdür. Batika sözü,əsasən İndoneziya mədəniyyətindən gəlir və “mumla yazmaq”mənasına gələn “ambatik” ifadəsindən törəmişdir.

Bu məqalədə batika sənətinin tarixi inkişaf mərhələləri, texniki xüsusiyyətləri,simvolik anlamları və müasir dövrdəki estetik və funksional dəyəri tədqiq ediləcəkdir. Məqsəd batikanın təkcə sənət forması olaraq deyil, həm də mədəni və sosial bir fenomen kimi analizi vasitəsilə onun daha dərin qatlarını açmaqdır. Məqalə çərçivəsində,həm ənənəvi,həm də müasir batika nümunələri müqayisəli şəkildə öyrəniləcək,dizayn və sənət təhsili baxımından əhəmiyyəti vurğulanacaqdır (Karimova, 2018).

Batika texnikasının yaranma mərhələsi hələ dəqiq müəyyən edilməsə də,onun ilkin izləri eramızın əvvəlindən VI-VII yüzilliklərə qədər Cənub-Şərqi Asiyada, xüsusilə də İndoneziyanın Yava adasında tapılmış parça qalıqları ilə təsdiqlənir (Ələkbərova, 2012, p. 1). Ənənəvi mənbələrə görə, “ambatik” ifadəsindən törəyən batika “mumla yazmaq”deməkdir. Mum (adətən arı mumu və ya bitki mumları qarışığı) parça üzərinə naxış şəklində çəkilir, onu soyutduqdan sonra boyaq ilə dolu çənə yerləşdirirdilər, mumu əridildikdən sonra naxışın ağ parça rəngi saxlanılırdı. Bəzəndə həmin proses əksinə yerinə yetirilirdi: əvvəlcə parça boyaq çənində boyanır, yaxşıca qurudulur və sonradan naxış salınıb,mumla işlənirdi, axırda isə parça turşulaşdırılmış məhlula salınırdı. Bu zaman parça üzərindəki boyaq yuyulub gedir mumlanmış hissələr isə rəngli qalırdı. Əgər iki naxış tələb olunurdusa onda proses birdə təkrar olunurdu. Bu üsul nümunələri daha mürəkkəb kompazisiyalara və çoxrəngli naxışlara imkan verirdi.

**Tədqiqat**

Batika bədii formaca zəngin olsa da,onun icrasında istifadə olunan alətlər çox sadədir. Kantinq yavalıların icad etdiyi alətdir. Bu alət rezervuar və ucuna bambuk çubuq taxılan nazik borudan ibarətdir. Bu alət mum qələm adlandırılırdı. Digər bir alət isə Vacan idi, uzunluğu 11 sm-dən uzun olmur. Mis rezervuar əridilmiş mumla doldurulur və parça üzərində naxış çəkilir. Parça üzərində fərqli

naxışların işlənməsi üçün vacanın ölçülərində dəyişməlidir. Bu ölçülərin ən kiçiyi 1 mm olur. Nöqtə və paralel xəttlər xüsusi vacanlarla çəkilir. Vacanların bəzilərinin uclarının sayı 9-a qədər olur. Əsərin əsas hissələrini doldurmaq üçün vacanın ucuna pambıq taxırlar ki,bu da ona fırça effekti verir. Vacan duru mum üçün rezervuar vəzifəsini daşıyır. Belə olduqda balaca çini qazanını xatırladır. Sənətkarlar parça üstündə naxışları çəkdikləri zaman mumun duru halda qalması üçün,onu kömürdə qızdırılmış kərpicdən olan sobaya qoyurlar.

Batikanın işlənməsində bir çox texnikadan istifadə olunur. İsti batika ənənəvi və klassik üsul hesab olunur,parça üzərinə əridilmiş mum çəkilir və sonra boya prosesi ilə xarakterizə olunur.

-Mum hazırlığı: Bitki mənşəli mumlarla qarışdırılmış arı mumu üstünlük təşkil edir.Bəzi regionlarda bal mumuna ağac qatqıları əlavə olunur ki,mum naxış xətlərində daha hamar sürüşsun.

-Çanting aləti: İncə ucunu mis və ya bürünc qazanda mumu əridən "çanting" aləti naxışın kontur xəttlərini çəkmək üçün istifadə olunur.Çanting nazik uclu boğaza malik olub, sənətkara sənətkara incə detallar yaratmağa şərait yaradır.

-Boyama mərhələsi: Mum çəkilmiş parça suya və ya rəngli banyoya salınır. Əvvə ən açıq, sonra isə tədricən tünd olan tonlarla boyanaraq polixrom effekt alınır. Nəhayət, parça qaynar suya soxularaq mum əridilir, orjinal ağ naxışlar ortaya çıxır.

Soyuq batika. Soyuq batikada mum istifadəsi yerinə rəng müqavimət göstərən kimyəvi pastalar, ştamplar və fırçalar tətbiq olunur:

-Rezistent pastalar: Lateks, akril bazalı pastalar parçanın müəyyən sahələrini boya üçün "qoruyur". Pastalar quruduqdan sonra parça boyanır, daha sonra rezistent qatı yuyulur.

-Ştamplar və fırçalar: Qədimdə ədviyyatdan, buğda unu ilə qarışdılmış boya pastası fırçalanırdı. Bu gün sənətkarlar ağac və kauçuk ştamplardan istifadə edərək ardıcıl və dəqiqliyi yüksək naxışlar yaradırlar.

Parça və boya materialları. Parça növləri: ənənəvi olaraq pambıq və ipək parçalar seçilir. Pambıq daha ucuz və geniş yayılmış, ipək isə lüks variant kimi yüksək cirrafiyə tələb edir.

-Təbii boyalar: İndiqo (mavi), kurkuma (sarı), licorice (qəhvəyi), xoruz dəyirman tozu (tünd qəhvə) ən çox istifadə olunan təbii maddələrdir.

-Sintetik boyalar: XX əsrdə sintetik anilin boyaların kütləvi istehsalı rəng seçimini zənginləşdirdi, lakin bəzi sənətşünaslar onların parça üzərində zədələmə potensialını və ekoloji məsuliyyətini tənqid edirlər.

-Xromlu boyalar: Bu boyalardan ipək və yun işlənməsində istifadə olunur. Xromlu boyalar öz növündə olan boyalarla və düzgün seçilmiş boyalarla yaxşı qarışır. Para vermədən, yəni bərkidilmədən sonra bu boyalar rənglərini dəyişirlər.

-Turşulu boyalar: bu boyalar ipək, yun, ştapel, sintetik, kapron, neylon və s., parçalar üzərində işləmək üçün nəzərdə tutulub.

-Əsas boyalar: bu boyalar ipək və yun parçalar üçün nəzərdə tutulur. Boyalar sulu və spirtli qatışıqlarla yaxşı həll olunur, xüsusən etanoik turşusu əlavə edəndə, bu boyalar şəffaf və göz oxşayan rənglər əldə olunur. Parçanın üzərində səliqəli yayılır və öz cinsindən olan boyalarla tədricən qarışır. Bu da öz növbəsində parçaya xüsusi gözəllik qatır və onu daha da füsunkar göstərir.

Bu texnikalar və geniş material çeşidliliyi batika sənətinin zənginliyini və regional variasiyalarını formalaşdırır. Hər bir üsulun özünə məxsus estetik və texniki xüsusiyyətləri

Həm sənətkara yaradıcılıq sərbəstliyi, həm də parça üzərində alınan nəticənin davamlılığını müəyyən edir. Batika sənətində ornament və motivlər təkcə dekorativ funksiyaya malik deyil, eyni zamanda dərin, mədəni və simvolik məna daşıyır. Bu sənət forması əsrlər boyu fərqli regionlarda dini inamları, mifoloji təsəvvürləri və sosial strukturu vizual şəkildə ifadə etmək üçün istifadə olunmuşdur. Batikanın simvolikasını başa düşmək üçün onun mədəni konteksinə nəzər yetirmək lazımdır (Nağıyeva, 2021).

Batika sənətində müxtəlif üslublardan istifadə olunur. Düyünlü batik üslubu parçanın tərtib olunmasının ən qədim və sadə üslublarındandır. Hətta o qədər sadə üslubdurki bütün hər kəs rahatlıqla bu üslubdan istifadə edərək, qeyri adi rənglərlə, müxtəlif naxışlarla əsər yarada bilər. Rəngləmədən əvvəl, parçanı bir çox yerdən düyünləyib və ya iplə bağlayırlar. Bundan sonra parça boyağa salınır,

düyünlü hissələr parçanın öz rəngi saxlanılır. Boyaqdan çıxan parçada düyünlər açılır və müxtəlif naxışlar əldə edilir (Rəhimova, 2021).

Tikilmiş batik üslubuna daha çox hind milli paltarı olan sarilər üzərində rast gələ bilərik. Nazik parça üzərində rəsm çəkilir və bərk iplə rəsm tikilib, bərk yığılır və sap düyünlənir. Daha sonra həmin parçanı boyaya salıb və sürətlə çıxardırıq. Parça yuyulub, qurudulur və saplar sökülür. Parça üzərində nazik saplardan ibarət xəttlər alınır.

Monotipiya qeyri-adi fakturaları sevən rəssamlar üçün işlənməsi xüsusi ilə zövq verici prosesdir. Bu üslub sənətkara imkan verirki qeyri-adi rəng çalarları ilə işləsin. Ressam bu üslubda mastixin, çubuqlar, daraq və yaxudda sadəcə barmaqlarınızdan istifadə edə bilərsiniz. Monotipiya yaratmaq üçün sənətkara hamar səth və şüşə və ya plastik lazım olacaq. Parçanı bu üslubun köməyi ilə boyadıqdan sonra pərdələrdə, divar panolarında, şırma və abajurlarda istifadə edə bilərsiniz.

Müasir dövrdə batika sənəti sadəcə keçmişin estetik irsi kimi deyil, həm də yaradıcılıq,əzəmmət və texnologiyanın vəhdəti kimi inkişaf edir. Qlobal mədəniyyətlərin qarşılıqlı təsiri və sənaye inqilabından sonra batika öz klassik formalarından uzaqlaşaraq yeni funksiyalar və tərzlər qazanmağa başlamışdır.

XX əsrin ikinci yarısından etibarən batika texnikasının kommersiyalaşdırılması və fabrik miqyasında tətbiqi bu sənətin əl işindən uzaqlaşmasına səbəb olmuşdur (Quliyeva, 2011).

-Maşınla istehsal: Ənənəvi mumla işləmə prosesi əvəzlənərək, çap texnologiyaları vasitəsiylə sürətli istehsala yönəldi. Bu, batikanın daha daha geniş kutləyə yönəlməsinə kömək etsədə sənətin orjinallığına və bədii dəyərinə təsir göstərdi.

-Dizayner brendləri: bəzi tanınmış dizaynerlər məsələn, Afrika və Asiya əsilli moda evləri batikanı müasir estetikaya uyğunlaşdıraraq interpretasiya etdilər. Bu həm də mədəniyyətin qorunub saxlanmasına xidmət edir. Moda və dizaynda batikanın rolu əvəz olunmaz yerə malikdir. Batika sənəti yalnız qalereyalarda nümayiş etdirilmir,batikadan həmçinin geyim dizaynında geniş istifadə olunur.

Müasir dövrdə batika artıq lokal deyil, qlobal mədəniyyətin parçası kimi qəbul olunur.

-Kross-mədəniyyəti təsirləri: Asiya və Afrika motivləri Avropa və Amerika dizyn məktəblərində də istifadə olunur. Fəlsəfi dönüş: Batika sadəcə parça bəzəmə texnikası deytil, həm də insanla təbiət arasında harmoniyanı ifadə edən bədii forma kimi yenidən dəyərləndirilir. Bu aspektdə xüsusilə yavaş moda hərəkatlarında ön plana çıxır.

Batika sənəti bu gün bir çox moda brendi üçün həm estetik, həm də fəlsəfi çıxış nöqtəsi kimi xidmət edir. Yavaş moda hərakatı təkrarolunmaz naxışlar və əllə hazırlanan detallar yavaş modanın əsas prinsiplərinə uyğundur.Unikal kolleksiyalar dizaynerlər batikanı yalnız parça üzərində deyil, aksessuarlar (şərflər, çantalar, ayaqqabılar) və digər geyim elementlərindədə istifadə edirlər.

Batika naxışları yalnız geyimlərlə məhdudlaşmır, o, mebel örtükləri, pərdələr, divar bəzəkləri və hətta keramika üzərində də tətbiq olunurdu. İnsan toxunuşlarının hiss olunduğu bu naxışlar interyerə "canlılıq" qatır və sənət obyektinə çevrilir. Təbii boyalardan və parçalardan istifadə edilən batika məhsulları ekoloji baxımdanda üstün sayılır. Dizayn fakültələrində batika xüsusi praktiki məşğələlərdə tətbiq edilir. Bu, tələbələrə tekstil texnikalarının texniki və estetik aspektlərini öyrənmək üçün imkan yaradır.

Batika sənəti Azərbaycanda qədim ipəkçilik və tekstil sənətinin zəngin fonunda inkişaf etmişdir. Xüsusilə Şəki, Basqal, Gəncə və Naxçıvan kimi bölgələrdə parça boyama, əl işi ilə naxış çəkmə və təbii boyalarla işləmə texnikası yüzilliklər boyu tətbiq olunmuşdur. Batikanın klassik formasında-mumla müqavimət yaratmaq texnikası yüzilliklər boyu tətbiq olunmuşdur. Azərbaycanda isə bu texnika XX əsrin ortalarından başlayaraq sənətkarlar və rəssamlar tərəfindən daha yaxşı mənimsənilmişdir. Bu dövrdə Azərbaycanda təsviri sənətdə tekstilə marağın artması ilə batika sənəti yenidən geniş vüsət almağa başlamışdir. Azərbaycan batikası İndoneziya və Afrika batikasından bir neçə xüsusiyyətinə görə fərqlənir. Motivlər Qafqaz xalça ornamentləri, milli nağıllardan götürülmüş obrazlar, Heydər Əliyev Mərkəzi, Qız Qalası kimi mədəni simvollar istifadə olunur. Rəng seçimində əsasən mavi, tünd qırmızı, narıncı, yaşıl tonlara müraciət olunur. İpək batikası daha çox üstünlük təşkil edir. Şəki ipəyi bu sənətdə geniş istifadə olunur (Məmmədov, 2019).

Azərbaycanda qədim dövrlərdən batika sənəti bilavasitə geyimlə bağlı olmuşdur. Azərbaycanın milli geyim aksessuarlarından sayılan "kəlağayı" bu nadir sənət incisinin ən qədim və heyranedici

nümunələrinin başında gəlir. Azərbaycan qadının həm toy şənliklərindən, həm də matəm günlərində əsas aksessuarı olan kəlağayının tarixi uzun əsrlər öncədən bizə məlumdur. Azərbaycan qadınının müasir kəlağayıya bənzər örpəklərdən istifadəsi eramızdan əvvəl V-VI əsrlərdə İran şahı I Daranın zamanında, sarayda xanımların arasında istifadə edildiyi bir çox mənbələrdə öz əksini tapmışdır. X əsrə məxsus olduğu hesab edilən Hüdud əl-aləm traktatında baş örtüklərinin, əsasən Bərzənd şəhərində istehsal olunduğu qeyd edilir.Azərbaycanın bir çox ərazilərində aparılan qazıntılar zamanı e.ə III minilliyə aid Tunc dövründən qalma iynə və bizlərin aşkar edilməsiçqədim dövrlərdə insanların özünə paltar tikdiyi və qazıntılar zamanı ipək parçalar arasında kəlağayınında tapılması, bu geyim növünün istifadəsinin minilliklər öncəsinə dayandığını sübut edir. Kəlağayı həmin dövrlərdən Azərbaycan qadınının geyim atributları arasında əsas yer tutduğu öz təsdiqini tapır. XVIII əsrdə bir çox araşdırmalarda göstərilirki, Azərbaycanın bir çox şəhərlərində kəlağayı istehsal edən kiçik müəssəsələr fəaliyyət göstərmişdir (Sadıqov, 2017).

## Nəticə

Bununlada Azərbaycanda ta qədim dövrlərdən batika sənətindən istifadə edildiyi öz təsdiqini tapır. Azərbaycan qadınının milli geyim atributunun əsas özəyini batika sənət nümunəsinə əsasən hazırlanmış kəlağayı təşkil etmişdir. Bu nadir sənət əsərinin günümüzdə geyim aksesuarı olaraq qorunub saxlanması və hələdə geniş formada istifadəsi milli adətlərimizin qorunub saxlanması deməkdir.

## Ədəbiyyat

1. Ələkbərova, S. (2012). *Milli dekorativ-tətbiqi sənətin inkişafında tekstil nümunələrinin rolu*. Mədəniyyət Nəşriyyatı.
2. Əliyev, Q. (2007). *Dekorativ-tətbiqi sənətin tarixi*. Şərq-Qərb.
3. Əliyeva, M. (2016). *Azərbaycanın bədii sənət növləri*. Elm və Təhsil.
4. Hacıyeva, T. (2010). *Azərbaycan xalq sənətində rəng və forma*. Təhsil.
5. İsayev, A. (2015). *Mədəniyyət və incəsənət: ənənədən müasirliyə*. Nurlar.
6. İsmayılova, L. (2018). *Batika sənətinin Azərbaycanda inkişafı*. İncəsənət.
7. Karimova, S. R. (2018). The role of batik in Azerbaijani decorative arts. *International Journal of Art & Design, 7*(2), 27–34. https://ijadjournal.org/batik-azerbaijan-karimova
8. Məmmədov, R. (2019). *Azərbaycan xalq tətbiqi sənətində tekstil örnəkləri*. Mədəni İrs.
9. Nağıyeva, S. (2021). Dekorativ sənətdə batika texnikasının tətbiqi və onun estetik əhəmiyyəti. *İncəsənət və Mədəniyyət, (2),* 22–27.
10. Quliyeva, Z. (2011). *Rəngkarlıq və dekorativ sənət*. AzərNəşr.
11. Rəhimova, S. (2021). *Batika texnologiyası və onun tədris metodikası*. Pedoqoji Nəşriyyat.
12. Sadıqov, E. (2017). *Müasir Azərbaycan incəsənətində ənənəvi ünsürlər*. Humanitar Nəşriyyat.